03.07.2019

# Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)

# PUBLİK HÜQUQİ ŞƏXSİ

01 yanvar 2018-ci ildən 31 dekabr 2018-ci il

tarixlərinə maliyyə hesabatı

2019

«JPA International Azərbaycan» MMC

Tax ID 1400267141
AZ1102,Baku,Cavadhanstr,17/1.
Tel/Fax (994 12) 511 29 22
e-mail:halalaudit@rambler.ru

INTERNATIONAL
JPA İnternational Azerbaijan LTD
JPA İnternational Azərbaycan MMC

VÖEN 1400267141
AZ1102,Bakı ş,Cavadxan k.17/1.
Tel/Fax (994 12) 511 29 22
e-mail:halalaudit@rambler.ru

**2019-cu il 04 mart tarixli JPA-03/2019 saylı müqaviləyə əsasən aparılmış auditin nəticəsinə dair auditorun yekun sənədlərinin**

## TƏHVİL-QƏBUL AKTI

**Bakı şəhəri** **09 iyul 2017-ci il**

Biz, aşağıda imza edənlər "İcraçı" **"JPA İNTERNATİONAL AZƏRBAYCAN" MMC** -nin auditoru Vəli Rəhim oğlu Rəhimov bir tərəfdən və "Sifarişçi" **Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC)** İdarə Heyəti sədrinin müavini – Dağbəyi Mirzəxan oğlu İsmayılov digər tərəfdən, bu aktı ona görə tərtib edirik ki, "İcraçı" tərəfindən 04 mart 2019-cu il tarixli **JPA-03/2019** saylı müqavilənin şərtlərinə uyğun olaraq audit aparılmışdır.

Auditin nəticəsinə görə "Sifarişçi"yə auditorun yekun sənədləri təhvil verilmişdir.

**Təhvil verdi:** **Təhvil aldı:**

**İcraçı** ____________ **V.Rəhimov** **Sifarişçi** ____________ **D.İsmayılov**

"JPA International Azərbaycan" MMC "JPA International Azerbaijan" LTD INTERNATIONAL

AZƏRBAYCAN DÖVLƏT İNFORMASİYA AGENTLİYİ (AZƏRTAC) PHŞ AZERBAIJAN STATE NEWS AGENCY (AZERTAC) LEPL

..

Mündəricat


MÜSTƏQIL AUDITORUN HESABATI ..... 2
MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT ..... 4
MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ..... 5
XALIS AKTIVLƏRDƏ (KAPITALDA) DƏYIŞIKLIKLƏR HAQQINDA HESABAT ..... 6
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ..... 7
1. Giriş ..... 9
AZƏRTAC-IN fəaliyyətinin istiqamətləri ..... 9
2. Əsas fəaliyyətin şərhi ..... 9
3. AZƏRTAC-ın əməliyyat mühiti ..... 10
4. Uçot siyasətinin təqdimatı ..... 10
Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları ..... 10
Valyutaların yenidən hesablanması ..... 10
Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər) ..... 11
Əsas vəsaitlərin amortizasiyası ..... 11
Qeyri-maddi aktivlər ..... 12
Aktivlərin qiymətdən düşməsi ..... 12
İnvestisiyalar ..... 12
Ehtiyatlar ..... 13
Alıcılar və sifarişçilərin debitor borcları ..... 13
Pul vəsaitləri və onların ekvivalentləri ..... 13
Nizamnamə kapitalı ..... 14
Kreditlər və borclar ..... 14
Mənfəət vergisi ..... 14
Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər) ..... 14
Gəlirin tanınması ..... 15
İcarə ..... 15
Müqayisəli məlumatlar ..... 15
5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri ..... 15
Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər ..... 16
Binaların yenidən qiymətləndirilməsi ..... 16
6. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi ..... 16
7. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR ..... 19
8. QEYRİ-MADDİ AKTİVLƏR ..... 21
11. DEBİTOR BORCU VƏ DİGƏR BORCLAR ..... 22
12. KREDİTOR BORCLARI VƏ DİGƏR BORCLAR ..... 22
13. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR ..... 22
14. GƏLİRLƏR ..... 23
17. ƏLAQƏLİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR ..... 23
18. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ ..... 24
19. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR ..... 24

Tax ID 1400267141
AZ1102,Baku,Cavadhanstr,17/1.
Tel/Fax (994 12) 511 29 22
e-mail:halalaudit@rambler.ru

JPA INTERNATIONAL
JPA İnternational Azerbaijan LTD
JPA İnternational Azərbaycan MMC

VÖEN 1400267141
AZ1102,Bakı ş,Cavadxan k.17/1.
Tel/Fax (994 12) 511 29 22
e-mail:halalaudit@rambler.ru

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) PHŞ-nin rəhbərliyinə:**

## Maliyyə hesabatlarının auditinə dair hesabat

### Rəy

Biz Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) PHŞ-in 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, maliyyə nəticələri haqqında hesabatdan, xalis aktivlərdə (kapitalda) dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, qoşma maliyyə hesabatları AZƏRTAC-ın 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

### Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq AZƏRTAC-dan asılı deyilik və biz digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik AZƏRTAC-ı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik AZƏRTAC-ın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər AZƏRTAC-ın maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

### Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud

olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- AZƏRTAC-ın daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi daşımamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında AZƏRTAC-ın fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin, sonrakı hadisələr və ya şəraitlər AZƏRTAC-ın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalara riayət etmişik.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməninmənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

"JPA İnternational Azərbaycan" MMC adından

Vəli Rəhimov
İdarəedici tərəfdaş-auditor

Bakı, Azərbaycan Respublikası
09 iyul 2019-cu il

## MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

**31 DEKABR 2018-Cİ İL TARİXDƏ BİTƏN İL ÜZRƏ**
(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilmişdir)

| | Qeydlər | 2018 | 2017 |
|---|---|---|---|
| **Gəlirlər** | | | |
| Qeyri-birja əməliyyatlarından gəlir | | 10 947 426,00 | 7 668 590,00 |
| Birja əməliyyatlarından gəlir | | 63 587,00 | 493 892,00 |
| Sair əməliyyat gəlirləri | | 0,00 | 0,00 |
| **Cəmi gəlirlər** | 14 | **11 011 013,00** | **8 162 482,00** |
| **Xərclər** | | | |
| Əmək haqqı xərcləri və dövlət sosial sığorta ayırmaları | | 5 857 655,00 | 3 298 383,00 |
| Maliyyə yardımları və sair transfer ödənişləri | | | 0,00 |
| Kommersiya xərcləri | | 0,00 | 493 892,00 |
| Sərf edilmiş materialların dəyəri | | 259 765,00 | 178 139,00 |
| Amortizasiya xərcləri | | 446 807,00 | 343 672,00 |
| Sair əməliyyat xərcləri | | 1 033 017,00 | 3 407 592,00 |
| Maliyyə xərcləri | | | **0,00** |
| **Cəmi xərclər** | **15** | **7 597 244,00** | **7 721678,00** |
| ***Ümumi mənfəət (zərər)*** | | ***3 413 769,00*** | ***440 804,00*** |
| Əmlakın əvəzsiz verilməsindən (alınmasından) itgilər (qazanc) | | | **0,00** |
| ***Kapital ehtiyatları*** | | ***6 913 769,00*** | ***(19 433,00)*** |
| ***Xalis mənfəət*** | | ***10 327 538,00*** | ***421 371,00*** |

**AZƏRTAC-ın rəhbərliyi tərəfindən təsdiqlənmişdir.**

**Rəhbər - Dağbəyi İsmayılov**

**Baş mühasib - Elşən Bayramov**

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

### 31 DEKABR 2018-ci il TARİXİNƏ

| | Qeydlər | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Qısamüddətli aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 31 485,00 | 4 907,00 |
| Qısamüddətli debitor borcları | 11 | 10 386,00 | 0,00 |
| Ehtiyatlar | 10 | 33 409,00 | 19 683,00 |
| Sair qısamüddətli maliyyə aktivləri | | | 0.,00 |
| Sair qısamüddətli aktivlər | | 0,00 | 0,00 |
| **Cəmi qısamüddətli aktivlər** | | **75 280,00** | **24 590,00** |
| **Uzunmüddətli aktivlər** | | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | 0,00 | 0,00 |
| Torpaq, tikili və avadanlıq və digər uzunmüddətli aktivlər | 7 | 7 508 885,00 | 1 013 013,00 |
| Qeyri-maddi aktivlər | 8 | 1 777 637,00 | 1 399 236,00 |
| Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | | 0,00 | 0,00 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **9 286 522,00** | **2 412 249,00** |
| **CƏMİ AKTİVLƏR** | | **9 361 802,00** | **2 436 839,00** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 12 | 808,00 | 0,00 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | 0,00 |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | 0,00 |
| Sair qısamüddətli öhdəliklər – alınmış avanslar | 13 | 10 386,00 | 0,00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **11 194,00** | **0,00** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli kreditor borcları | | | 0,00 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | 0,00 |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | 0,00 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | **0,00** |
| **Cəmi öhdəliklər** | | **11 194,00** | **0,00** |
| **Xalis Aktiv (Kapital)** | | | |
| Ödənilmiş nizamnamə (nominal) kapitalı | | 0,00 | 0,00 |
| Geri alınmış kapital (səhmlər) | | | 0,00 |
| Kapital ehtiyatları | 16 | 9 350 608,00 | 2 436 839,00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | **(0,00)** | **(0,00)** |
| **Cəmi xalis aktivlər (kapital)** | | **9 350 608,00** | **2 436 839,00** |
| **Cəmi xalis aktivlər (kapital) və öhdəliklər** | | **9 361 802,00** | **2 436 839,00** |

**AZƏRTAC-ın rəhbərliyi tərəfindən təsdiqlənmişdir.**

**Rəhbər** **Dağbəyi İsmayılov** | **Baş mühasib - Elşən Bayramov**

## XALIS AKTIVLƏRDƏ (KAPITALDA) DƏYIŞIKLIKLƏR HAQQINDA HESABAT

### 31 DEKABR 2018-ci il TARİXDƏ BİTƏN İL ÜZRƏ

| | |
|---|---|
| **01 yanvar 2017-cı il tarixinə qalıq** | |
| Nizamnamə kapitalı | 0,00 |
| Kapital ehtiyatları | 1 996 036,00 |
| Bölüşdürülməmiş mənfəət/(ödənilməmiş zərər) | (0,00) |
| **CƏMİ** | **1 996 036,00** |
| **2017-cı il ərzində dəyişiklik** | |
| Nizamnamə kapitalı | 0,00 |
| Kapital ehtiyatları | 440 803,00 |
| Mənfəət/( zərər) | 0,00 |
| **CƏMİ** | **440 803,00** |
| **01 yanvar 2018-ci il tarixinə qalıq** | |
| Nizamnamə kapitalı | 0,0 |
| Kapital ehtiyatları | **2 436 839,00** |
| Bölüşdürülməmiş mənfəət/(ödənilməmiş zərər) | 0,00 |
| **CƏMİ** | **2 436 839,00** |
| **2018-ci il ərzində dəyişiklik** | |
| Nizamnamə kapitalı | 0.00 |
| Kapital ehtiyatları | 6 913 769.00 |
| Mənfəət/( zərər) | 0,00 |
| **CƏMİ** | **6 913 769,00** |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | |
| Nizamnamə kapitalı | 0.00 |
| Kapital ehtiyatları | **9 350 608,00** |
| Mənfəət/( zərər) | (0,00) |
| **CƏMİ** | **9 350 608,00** |

**AZƏRTAC-ın rəhbərliyi tərəfindən təsdiqlənmişdir.**

**Rəhbər - Dağbəyi İsmayılov** **Baş mühasib - Elşən Bayramov**

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

### 31 DEKABR 2018-ci il TARİXDƏ BİTƏN İL ÜZRƏ

| | Qeyd | 2018 | 2017 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | 3 413 769,00 | 440 804,00 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| azlıq təşkil edən mülkiyyətçilərin payı | | | |
| mənfəət vergisi üzrə xərclər | | | |
| **Qeyri pul maddələri üzrə gəlirlər və xərclər**: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 7 | 234 481,00 | 247 530,00 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 8 | 212 325,00 | 96 142,00 |
| Bioloji aktivlərin amortizasiyası | | | |
| Silinmiş əsas vəsaitin qalıq dəyəri | | | |
| **Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər** | | | |
| Ehtiyatlar | 10 | (13 726,00) | 19 436,00 |
| Bioloji aktivlər | | | |
| Qısamüddətli debitor borcları | 11 | (10 386,00) | |
| Sair aktivlər | | | |
| Cari vergi öhdəlikləri | | | |
| Kreditor borcları və hesablaşmalar | 12 | 808,00 | |
| Sair qısamüddətli kreditor borcları | 13 | 10 386,00 | |
| Ödənilmiş mənfəət vergisi | | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **3 847 657,00** | **803 912,00** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 7 | (3 230 353,00) | (232 811,00) |
| QMA alınması | 8 | 624 007,00 | (571 100,00) |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxil olmaları | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | (3 821 079,00) | (803 911,00) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxil olmaları | | | |
| Maliyyə qoyuluşları | | | |
| Dividendlər və buna oxşardigər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **0,00** | **0,00** |

| | | | |
|---|---|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | 9 | **26 578,00** | **1,00** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | **31.12.2018** | **31.12. 2017** |
| Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan qalığı | 9 | 4 907,00 | 154 222,00 |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | 26 578,00 | 4 907,00 |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **9** | **31 485,00** | **4 907,00** |

**AZƏRTAC-ın rəhbərliyi tərəfindən təsdiqlənmişdir.**

**Rəhbər - Dağbəyi İsmayılov**

**Baş mühasib - Elşən Bayramov**

## 1. GİRİŞ

Hazırkı maliyyə hesabatları 31 dekabr 2018-ci ildə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmışdır.

***Azərbaycan Dövlət İnfotmasiya Agentliyi*** (bundan sonra-AZƏRTAC) "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanına əsasən yaradılmış, dövlətin və cəmiyyətin həyatının müxtəlif sahələrinə aid informasiya toplayan, onu yerli və xarici kütləvi informasiya vasitələrinə, Azərbaycan Respublikası dövlət orqanlarına, fiziki və hüquqi şəxslərinə operativ surətdə çatdıran, Azərbaycan Respublikasını regional və beynəlxalq media qurumlarında təmsil edən publik hüquqi şəxsdir.

AZƏRTAC-ın müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan və ingilis dillərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları,loqotipi(emblemi) vardır.

## AZƏRTAC-IN FƏALİYYƏTİNİN İSTİQAMƏTLƏRİ

AZƏRTAC-ın fəaliyyətinin maqsədi dövlət səviyyəsində rəsmi xəbərləri, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında baş verən yeniliklər barədə informasiyaları ictimaiyyətə çatdırmaq və Azərbaycan Respublikası haqqında obyektiv məlumatları beynəlxalq miqyasa geniş yaymaqdır.

AZƏRTAC-aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir.

Ölkənin daxili və xarici siyasəti ilə bağlı ən mühüm hadisələr haqqında, ictimai-siyasi, regional və beynəlxalq hadisələr barədə xəbərləri, şərh və rəyləri, analitik məqalələri, foto və videoinformasiyaları, infoqrafiya məhsullarını, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və digər dövlət orqanlarının rəsmi materiallarını kütləvi informasiya vasitələri, hüquqi və fiziki şəxslərin müraciətləri əsasında öz kanalları, beynəlxalq internet şəbəkəsi, üzvü olduğu beynəlxalq və regional media qurumlarının, tərəfdaşlıq etdiyi xarici ölkənin informasiya agentliklərinin saytları və sosial şəbəkələr vasitəsi ilə yayır .

Dövlət siyasətinə uyğun olaraq, ölkədə və xaricdə özünün informasiya xidmətlərini ( müxbir məntəqələrini, informasiya mərkəzlərini) yaradır, yenidən təşkil və ya ləğv edir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, xarici ölkəkərin informasiya agentlikləri və digər kütləvi informasiya orqanları ilə mübadilə və ya kommersiya şərtləri əsasında informasiya verilməsi (əldə edilməsi) haqqında müqavilə bağlayır.

İnformasiya mübadiləsi aparır, müxtəlif təşkilatlarla, Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici şirkətlərlə əməkdaşlıq haqqında müqavilələr bağlayır.

AZƏRTAC-ın maddi-texniki bazasının müasir tələblər və beynəlxalq standartlar səviyyəsində inkişafı üçün tədbirlər görür.

## 2. ƏSAS FƏALİYYƏTİN ŞƏRHİ

AZƏRTAC 2018-ci il 03 aprel tarixli 1801020010769100 nömrəli kommersiya hüquqi şəxslərinin Dövlət reyestrindən çıxarışla Bakı şəhəri Vergilər Departamenti Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində qeydə alınmış və ona dövlət qeydiyyatı barədə 1400584751 saylı VÖEN verilmişdir.

AZƏRTAC öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan respublikasının qanunlarının, bu nizamnamənin, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamarını, digər normativ hüquqi aktları rəhbər tutur

AZƏRTAC ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

Azərbaycan Dövlət İnformasiya Agentliyi PHŞ hüquqi ünvanı aşağıdakı kimidir:

Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1014, Nəsimi Rayonu Bülbül pr. Ev 30

Hazırki maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı (AZN) İLƏ İFADƏ OLUNMUŞDUR

## 3. AZƏRTAC-IN ƏMƏLIYYAT MÜHİTİ

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlər, o cümlədən milli valyutanın bir çox xarici ölkələrdə praktiki cəhətdən sərbəst dönərli valyuta hesab edilməməsi və nisbi inflyasiya, güclü iqtisadi artım müşahidə olunmaqdadır..

Azərbaycan Respublikasının vergi, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Bundan əlavə, Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya müəssisələrinin üzləşdiyi çətinliklərə müflisləşmə və iflas haqqında qanunverici bazanın təkmilləşdirilməsi zərurəti, eləcə də hüquqi və fiskal sistemlə bağlı bir sıra çatışmazlıqlar daxildir. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının səmərəliliyindən, eləcə də vergi, sosial sığorta, hüquq, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

## 4. UÇOT SIYASƏTININ TƏQDİMATI

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

**Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları**

Azərbaycan Dövlət İnformasiya Agentlyinin (AZƏRTAC) son maliyyə hesabatları bütün istiqamətlər üzrə MHBS-larının tələblərinə uyğun olmayan milli tələblərə uyğun olaraq hazırlanmışdır. Hazırkı hesabat ilk olaraq "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının ilk dəfə tətbiq edilməsi" adlı 1 saylı MHBS-nı tətbiq etməklə Maliyyə Hesabatlarının Beynalxalq Standartlarına (MHBS) uyğun tərtib edilmişdir. Bu maliyyə hesabatlarında, aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir. Yenidən qiymətləndirmə aparılan və ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilən torpaq, binalar, satış üçün saxlanılan maliyyə aktivləri və maliyyə öhdəlikləri (törəmə alətləri də daxil olmaqla) yenidən qiymətləndirilir.

**Valyutaların yenidən hesablanması**

*(a) Funksional valyuta və hesabat valyutası*
Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu müəssisənin yerli valyutası olan Azərbaycan Respublikası manatıdır (AZN).

*(b) Əməliyyatlar və qalıqlar*
Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır (və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir). Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, maliyyə nəticələri haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nəğd, əldə edilən vəsaitləri, ssudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri-monetar maddələrə , ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərcləri, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

**Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər)**

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:
(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;
(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Torpaq və binalara əsasən istehsal sahələri və binaları, ticarət sahələri və binaları, ofis sahələri və binaları daxildir. Torpaq və binalar ədalətli dəyər üzrə əks etdirilməlidir..

Ədalətli dəyər – yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildə bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan dütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Agentliyə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xəcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Torpaq və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar (rezervlər) hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirmə artımı hədləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar (rezervlər) hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**Əsas vəsaitlərin amortizasiyası**

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır.
AZƏRTAC Torpaq, tikili və avadanlıqların amortizasiyasını Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-12 nömrəli 24 dekabr 2012-cil tarixli Qərarı ilə təsdiq edilmiş "Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlarda və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normalları barədə Təlimat "a uyğun olaraq hesablayır.

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaric olmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaric olmalardan mənfəət və zərərlər mənfəət və zərərlər

haqqında hesabatda əks etdirilir.

**Qeyri-maddi aktivlər**

Əldə edilmiş qeyri-maddi aktivlər onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılmışdır. AZƏRTAC tərəfindən nəzarət olunan identifikasiya oluna bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən şirkətlərə sərf edilən xərclər daxildir. Proqram təminatı ilə əlaqədar olan bütün digər xərclər (məsələn, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı onun 10 illik faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

Lisenziyalar hər hansı bir fəaliyyət növünə dövlət orqanları tərəfindən verilən xüsusi icazələr təşkil edir və verildiyi 5 il müddətinə faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

**Aktivlərin qiymətdən düşməsi**

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyəri;

(b) Istifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

**İnvestisiyalar**

Agentlik özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

- Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;
- Borc vəsaitləri və debitor borcları,
- İnvestisiyalar;
- Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.

*(a) Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri*

Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri və ilkin tanınmış ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir. Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər ki, onlar hedcinqləşdirmə alətləri deyildirlər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşlarsa, və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

*(b) Borc vəsaitləri və debitor borcları*

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (kotirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Agentlik debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər (əgər ödəmə müddəti mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında "Debitor borcları" maddəsinin tərkibində əks etdirilmişlər.

(c) *Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar*

Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Agentliyin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesabat dövründə Agentliyin bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

(d) *Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri*

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilirlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər..

**Ehtiyatlar**

Ehtiyatlar iki göstəricidən ən aşağı dəyərə malik olan qiymət üzrə əks etdirilirlər:

(a) Maya dəyəri

(b) Xalis satış dəyəri

Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Hazır məhsulun və bitməmiş istehsalın maya dəyərinə xammal və material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Xalis satış dəyəri – adi təsərrüfat fəaliyyəti zamanı qiymətləndirilmiş mümkün satış qiyməti ilə satış üzrə xərclər arasındakı fərq məbləğidir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

**Alıcılar və sifarişçilərin debitor borcları**

Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları (rezervi) o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Agentlik tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların (rezervin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyəri arasındakı fərqdir. Ehtiyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

**Nizamnamə kapitalı**

Təsisçi payı kapital kimi təsnifləşdirilir.

**Kreditlər və borclar**

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır. Sonrakı dövrlərdə kreditlər və borclar amortizasiya olunan dəyər ilə əks etdirilir: istənilən alınmış vəsaitlər və ödənilmiş məbləğlər arasındakı fərq kredit və borcların verilmə müddəti ərzində mənfəət və zərərlər haqında hesabatda əks etdirilir (effektiv faiz dərəcəsi metodu istifadə edilməklə).

Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqrazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada ləğv olunma müddətinə və istiqrazların ödənmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiyaya opsion kimi mənfəət vergisi effekti çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar, Agentlik tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətinədək ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

**Mənfəət vergisi**

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının balans tarixinə qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifadə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanmışdır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb edilesi mənfəət əldə edilməsi ehtimalı vardır.

**Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər)**

Ətraf mühitin bərpa olunmasına, restrukturizasiyaya və məhkəmə çəkişmələrinə ehtiyatlar (rezervlər) o zaman yaradılır ki:

- Agentlik keçmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;
- Ehtimallar vardır ki, bu öhdəliklərin səhmana salınması üçün pul vəsaitlərinin axını labüddür;

- Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilir.

Resturukturizasiya xərcləri üzrə ehtiyatlara icarə müqavilələrinin vaxtından əvvəl ləğv edilməsinə görə cərimə sanksiyaları və işçilərə ödənilən işdən çıxma müavinətləri daxildir. Gələcək dövrlərin əməliyyat zərərləri üzrə ehtiyatlar yaradılmır.

**Gəlirin tanınması**

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

*(a) Xidmətlərin göstərilməsindən gəlirlər*

Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiymətləndirilir.

*(b) Faiz gəlirləri*

Faiz gəlirləri effektiv faiz dərəcəsi metodu istifadə edilməklə zaman tənasüblüyü əsasında tanınır. Debitor borcunun dəyərinin aşağı düşməsi hallarında Agentlik balans dəyərini əvəzi ödənilə bilən dəyərə qədər aşağı salır. Dəyərin bu qaydada aşağı salınması, maliyyə alətlərinin effektiv faiz dərəcəsindən istifadə edilməklə, ilkin tanınma tarixinə pul vəsaitləri axınının gələcək diskontlaşdırılmış hesablamaları yolu ilə müəyyən edilir. Dəyəri aşağı salınmış faiz gəlirləri konkret şəraitdən asılı olaraq, pul vəsaitlərinin daxil olması və ya xərclərin əvəzinin ödənilməsi qaydasında tanınır.

*(c) Dividend gəlirləri*

Dividend gəlirləri o zaman tanınır ki, təsisçilərin mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

**İcarə**

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**Müqayisəli məlumatlar**

Əvvəlki hesabat dövrlərində Agentlik faiz gəlirlərini və dividend gəlirlərini "maliyyə gəlirləri (xərcləri) – netto" maddəsi üzrə açıqlamışdır. Rəhbərlik belə hesab edir ki, göstərilən gəlirlərin əməliyyat fəaliyyətindən mənfəətin hesabalanması bölməsinə aid olan "sair gəlirlər (xərclər) – netto" hesabına daxil edilməsi Agentliyin fəaliyyətinin nəticələrini daha düzgün əks etdirir.

## 5. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ MÜHASİBAT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏRİ

Agentlik növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

**Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər**

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

**Binaların yenidən qiymətləndirilməsi**

Hər bir balans tarixində AZƏRTAC-ın binalarının ədalətli dəyərinin balans hesabatında əks etdirilməsi məqsədilə, rəhbərlik binaların yenidənqiymətləndirilməsi üzrə əsas əldə etmək məqsədilə müstəqil qiymətləndirmə hesabatının tələb olunduğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür.

## 6. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

01 yanvar 2018-ci il tarixindən qüvvəyə minən MHBS-lara aşağıdakı düzəlişlər istisna olmaqla qəbul olunmuş mühasibat uçotu prinsipləri əvvəlki maliyyə ilinin prinsipləri ilə uyğunluq təşkil edir.

AZƏRTAC 9 saylı MHBS-ni və 15saylı MHBS-ni ilk dəfə tətbiq etmişdir. Bu yeni uçot standartlarının qəbul edilməsi nəticəsində dəyişikliklərin xusiyyəti və təsviri aşağıda təsvir olunur.

Bir neçə digər düzəliş və şərtlər 2018-ci ildə ilk dəfə tətbiq edilmiş, lakin AZƏRTAC-ın maliyyə hesabatlarına təsir göstərməmişdir. AZƏRTAC buraxılmış, lakin hələ qüvvəyə minməmiş heç bir standartı, şərhi və ya düzəlişi erkən tətbiq etməmişdir.

*9 saylı MHBS "Maliyyə alətləri"*

9 saylı MHBS "Maliyyə alətləri" 01 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonrakı illik dövrlər üçün 39 saylı "Maliyyə alətləri: Tanıma və ölçmə adlı MUBS-nı əvəz edir və maliyyə alətərinin bütün üç aspektini təsnifləşdirmə və ölçmə, dəyərsizləşmə və hedcinq uçotunu bir araya gətirir.

AZƏRTAC 9 saylı MHBS-nı retrospektiv şəkildə tətbiq edərək, müqayisəli rəqəmləri tətbq etməməyi seçmişdir. 9 saylı MHBS-nın əhatə dairəsinə hazırda daxil olan aktivlərə dair əvvəlki ilin rəqəmləri 39 saylı MUBS-a uyğun təqdim edilmişdir və 2018-ci ilin məlumatları ilə müqayisə edilmir. 9 saylı MHBS-nın qəbul edilməsindən irəli gələn fərqlər 01 yanvar 2018-ci il tarixinə bir başa bölüşdürülməmiş mənfəətdə və qeyri-nəzarət paylarında tanınmışdır və aşağıda təqdim edilir.

*(a) Təsnifləşirmə və qiymətləndirmə*

9 saylı MHBS-na əsasən "yalnız əsas məbləğin və faizin ödənilməsi" (YƏMFÖ) meyarına uyğun gəlməyən bütün borc maliyyə aktivləri ilkin tanınma zamanı mənfəət və ya zərərdə ədalətli dəyərlə tanınan aktivlər (MZƏD) kimi təsnifləşdirilir. YƏMFÖ meyarına uyğun gələn borc maliyyə alətləri mənfəət və ya zərərdə ədalətli dəyər (MZƏD), amortizasiya hesablanmış dəyər və ya sair məcmu gəlirlə ədalətli dəyərlə (SMGƏD) ölçülür. YƏMFÖ meyarına cavab verən borc maliyyə aktivləri üçün təsnifat bu alətlərin AZƏRTAC tərəfindən idarə edilməsi üçün istifadə edilən biznes modelə əsasən müəyyə edilir.

- "Yığılmaq üçün saxlanılan" əsasda idarə olunan alətlər amortizasiya hesablanmış dəyərlə ölçülür.;
- " Ticarət üçün saxlanılan" əsasda idarə olunan alətlər, MZƏD ilə ölçülür.

AZƏRTAC-ın biznes modellərinin qiymətləndirilməsi ilkin tətbiq etmə tarixində (01 yanvar 2018-ci il) edilir və daha sonra 01 yanvar 2018-ci il tarixinədək tanınması dayandırılmayan maliyyə aktivlərinə retrospektiv şəkildə tətbiq edilir. Borc alətləri üzrə müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin yalnız əsas məbləğ və faizdən ibarət olub olmaması yalnız aktivlərin ilkin tanınma tarixində deyil, həm də əhəmiyyətli dəyişikliyin edildiyi tarixdə olan fakt və şəraitərə əsasən qiymətləndirilir.

*15 saylı MHBS "Müştərilərlə müqavilələrdən əldə edilmiş gəlirlər"*

15 saylı MHBS 11 saylı "Tikinti müqavilələri" adlı MUBS, 18saylı "Gəlirlər" adlı MUBS və əlaqəli şəhrləri əvəz edir və məhdud sayda istisnalar olmaqla müştərilərlə müqavilələrdən irəli gələn bütün gəlirlərə tətbiq edilir. 15 saylı MHBS müştərilərlə müqavilələrdən irəli gələn gəlirlərə tətbiq ediləcək beş mərhələli modeli tətbiq edir. 15 saylı MHBS-a görə gəlirlər müəssisənin müştəriyə göndərdiyi mallar və ya xidmətlər əvəzində alınması gözlənilən vəsaiti əks etdirən məbləğdə tanınır.

15 saylı MHBS müəssisələrdən müştərilərlə müqavilələrə modelin hər bir mərhələsini tətbiq edərkən bütün müvafiq fakt və şəraitləri nəzərə almaqla mühakimə işlətməyi tələb edir. Bundan əlavə standart müqavilə əldə edilməsi ilə bağlı artan xərclərin və müqavilənin icrası ilə birbaşa əlaqəli olan xərclər uçot qaydasını müəyyən edir. Eyni zamanda, standart məlumatların daha geniş şəkildə açıqlamasını tələb edir.

AZƏRTAC 15 saylı MHBS 01 yanvar 2018-ci il ilkin tətbiqetmə tarixi ilə düzəlişlər edilmiş retrospektiv metodundan istifadə etməklə qəbul etmişdir. Bu metoda əsasən, standart ilkin tətbiqetmə tarixində bütün müqavilələrə və ya yalnız bu tarixə tamamlanmamış müqavilələrə tətbiq edilə bilər. AZƏRTAC bu standartı 01 yanvar 2018-ci il tarixinə yeni tamamlanmamış müqavilələrə tətbiq etməyi seçmişdir.

15 saylı MHBS-nın ilkin tətbiqinin məcmu təsiri ilkin tətbiqetmə tarixində bölüşdürülməmiş mənfəətin açılış balansına düzəliş kimi tanınır. Bu səbəbdən müqayisəli məlumat yenidən hesablanmış və 11 saylı MUBS və əlaqəli şəhrlər əsasında təqdim edilməyə davam edir.

*22 saylı MHBŞK şərhi "Valyuta əməliyyatları və avans ödənişləri"*

Bu şəhr izah edir ki, avans məbləğinə aid olan əlaqəli aktivin , xərcin və ya gəlirin (və ya bunların bir hissəsinin) ilkin tanınmasında istifadə ediləcək spot valyuta məzənnəsinin müəyyənləşdirilməsində əməliyyat tarixi olaraq müəssisə tərəfindən avans ödənişindən irəli gələn qeyri-monetar aktiv və ya qeyri-monetar öhdəlik ilkin olaraq tanındığı tarix hesab olunur. Bir çox avans ödəniş və ya daxilolma olduqda müəssisə hər bir avans ödəniş və ya daxilolma üçün əməliyyat tarixini müəyyən etməlidir.

*İnvestisiya əmlakının keçirilməsi- 40 saylı MUBS-a düzəlişlər*

Düzəlişlər müəssiənin nə vaxt əmlakı, o cümlədən tikintisi və inşası tamamlanmamış əmlakı investisiya əmlakına aid etməli (və ya investisiya əmlakından çıxarılmalı ) olduğunu aydınlaşdırmalıdır. Düzəlişlər göstərir ki, istifadə qaydasında dəyişiklik investisiya əmlakı anlayışına uyğun gəlməyə başlayanda (və ya artıq gəlməyəndə) və istifadə qaydasının dəyişməsinin sübutu mövcud olanda baş verir. Rəhbərliyin əmlakdan istifadə qaydasını dəyişmək niyyəti, istifadə qaydasının özünün dəyişməsi demək deyildir.

**Buraxılmış, lakin hələ qüvvəyə minməmiş standartlar.**

AZƏRTAC-ın maliyyə hesabatlarının təqdim edilməsi tarixinə buraxılmış, lakin hələ qüvvəyə minməmiş standartlar və şəhrlər aşağıda göstərilir. AZƏRTAC bu standartlar və düzəlişlər qüvvəyə mindikdə (tətbiq edildikdə) onları qəbul etmək niyyətindədir.

*16 saylı MHBS "İcarələr"*

16 saylı MHBS 2016-cı ilin yanvar ayında buraxılmış və 17 saylı BUMS "İcarələr", BMHŞK 4 "Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun Müəyyən Edilməsi" Şərhi, Standartların Şərhi Komitəsinin (SŞK) 15 saylı "Əməliyyat icarələri-həvəsləndirmələr" Standartı və SŞK "İcarənin hüquqi forması da daxil olmaqla əməliyyatın mahiyyətinin qiymətləndirilməsi" 27 saylı Standartı əvəz edir. 16 saylı MHBS icarələrin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir və icarəyə götürənlərdən bütün icarələri 17 saylı BMUS əsasında maliyyə icarəlirinin uçotu ilə eyni qaydada yeganə balans hesabatı modeli əsasında uçota alınmasını tələb edir. Standarta icarəyə götürənlər üçün iki tanıma istisnası daxildir -"azdəyərli" aktivlərin icarəsi (məsələn şəxsi kompyuterlər) və qısamüddətli lizinqlər (məsələn, icarə müddəti 12 aydan çox olmayan icarələr). İcarə başladığı tarixdə icarəyə götürən icarə ödənişlərinin aparılması

öhdəliyini (yəni icarə öhdəliyini) və icarə müddəti ərzində müvafiq aktivi istifadə etmək hüququndan ibarət olan aktivi (yəni istifadə hüququ aktivini) tanıyır. İcarəyə götürənlər icarə öhdəliyi üzrə faiz xərcini və istifadə hüququ aktivi üzrə köhnəlmə xərcini ayrıca tanımalıdır.

Bundan əlavə icarəyə götürənlər müəyyən hadisələr baş verəndə (məsələn icarə müddəti dəyişəndə, bu ödənişləri müəyyən etmək üçün istifadə edilən əmsal və dərəcələrdə dəyişikliklər olduğuna görə gələcək icarə ödənişləri dəyişəndə) icarə öhdəliyini yenidən hesablamalıdır. İcarəyə götürən ümumiyyətlə icarə öhdəliyinin yenidən hesablanmasını istifadə hüququ aktivinə düzəliş kimi tanımalıdır.

16 saylı MHBS əsasında icarəyə verənin uçotu hazırda 17 saylı MUBS-na uyğun uçot qaydasından əhəmiyyətli fərqlənmir. İcarəyə verənlər bütün icarələri 17 saylı MUBS-da nəzərdə tutulan təsnifata uyğun olaraq təsnif etməyə və iki icarə növünü: əməliyyat və maliyyə icarələrini ayırmağa davam edəcək.

01 yanvar 2019-cu il tarixində başlayan və bu tarixdən sonrakı illik dövrlər üçün qüvvəyə minən 16 saylı MHBS icarəyə götürənlərdən və icarəyə verənlərdən 17 saylı MUBS-un tələbləri ilə müqayisədə məlumatların daha geniş açıqlanmasını tələb edir.

*16 saylı MHBS-yə keçid*

AZƏRTAC 16 saylı MHBS-nı düzəlişlər edilmiş retrospektiv metodu istifadə edərək qüvvəyə minmə tarxində qəbul etməyi planlaşdırır və ilkin tətbiqetmə tarixində müqavilənin icarə müqaviləsi olub-olmaması və ya tərkibində icarənin olub olmamasını yenidən qiymətləndirməməyi müəssisəyə icarə verən praktiki məqsədəuyğun halı tətbiq etməyi seçəcək. Bundan əlavə, AZƏRTACstandart üzrə istisnaları ilkin tətbiqetmə tarixindən sonra 12 ay ərzində bitən icarə müqavilələrinə və əsas aktivi azdəyərli olan müqavilələrə tətbiq etməyi seçəcək. Hal-hazırda AZƏRTAC 16 saylı MHBS-nin təsvirini qiymətləndirir.

*17 saylı MHBS "Sığorta müqavilələri"*

2017-ci ilin may ayında BMUSK tanınma və ölçmə, təqdimat və açıqlanma kimi məsələləri əhatə edən sığorta müqavilələri üzrə ətraflı yeni mühasibat uçotu standartı 17 saylı "Sığorta müqavilələri" adlı MHBS-nı hazırladı. Qüvvəyə mindikdən sonra 17 saylı MHBS 2005-ci ildə qüvvəyə minmiş 4 saylı "Sığorta müqavilələri" adlı MHBS-ni əvəz edəcək. 17 saylı MHBS bütün növ sığorta müqavilələrinə (yəni, həyat, qeyri-həyat, birbaşa və təkrar sığorta) onları verən müəssisələrin növündən asılı olmayaraq, eləcə də ixtiyari iştirak xüsusiyyətləri olan müəyyən zəmanətlərə və maliyyə alətlərinə tətbiq edilir. Əhatə dairəsi ilə bağlı bir neçə istisna tətbiq ediləcək. 17 saylı MHBS-nin ümumi məqsədi sığortaçılar üçün daha faydalı və uyğun olan sığorta müqavilələri üçün uçot modelini təqdim etməkdir. Əsas etibarı ilə ölçmə məqsədləri üçün əvvəlki yerli uçot prinsiplərinə istinad edən 4 saylı MHBS-nin tələblərindən fəqli olaraq, 17 saylı MHBS mühasibat uçotunun bütün müvafiq tərəflərini əhatə edən sığorta müqavilələri üzrə geniş model təqdim edir. 17 saylı MHBS-nın əsasını ümumi model təşkil edir və aşağıdakılarla tamamlanır:

- Birbaşa iştirak xüsusiyyətləri olan müqavilələrin xüsusi uyğunlaşdırılmas (dəyişkən haqq yanaşması).

- Sadələşdirilmiş yanaşma (Premium bölüşdürmə yanaşması)-əsas etibarı ilə qısamüddətli müqavilələrə.

17 saylı MHBS 01 yanvar 2021-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir, müqayisəli rəqəmlər tələb olunur. Müəssisə 17 saylı MHBS-ni ilk dəfə tətbiq etdiyi tarixdə və ya bu tarixdən əvvəl 9 saylı MHBS-nı və 15 saylı MHBS-nı tətbiq etdiyi təqdirdə, erkən tətbiq etmyə icazə verilir.

Bu standart AZƏRTAC-a tətbiq edilmir.

23 saylı BMHŞK şərhi "mənfəət vergisinin uçotu ilə bağlı qeyri-müyyənlilik"

Bu şərh, mənfəət vergisinin rejimi 12 saylı BUMS-un tətbiq edilməsinə təsir göstərən qeyri-müəyyənliklərlə bağlı olduğu hallarda verginin uçot qaydasını müəyyən edir. 12 saylı BUMS-nın əhatə

dairəsindən kənar olan vergilərə və ya tutulmalara tətbiq edilmir və qeyri-müəyyən vergi rejimi ilə bağlı faiz və cərimələrə aid tələbləri özündə əks etdirmir.

Şəhr xüsusi olaraq aşağıdakı məsələləri əhatə edir:

- Müəssisnin qeyri-müəyyən vergi rejimi ayrı-ayrılıqda nəzrdən keçirib-keçirməməsi;
- Vergi uçotunun vergi orqanları tərəfindən yoxlanılmasına dair müəssisənin fərziyələri;
- Müəssisə vergiyə cəlb olunan mənfəəti (vergi zərəri), vergi bazasını, istifadə eilməmiş vergi zərərlərini, istifadə eilməmiş vergi kreditlərini və vergi dərəcələrini necə müəyyənləşdirir.
- Müəssisə fakt və şəraitlərdə dəyişiklikləri necə nəzərə alır.

Müəssisə hər bir qeyri müəyyən vergi rejimini ayrı-ayrılıqda və ya bir və ya daha çox digər vergi rejimi ilə birlikdə nəzərdən keçirilməli olub-olmamağını müəyyənləşdirməlidir. Qeyri-müəyyənliyin həlli yollarından qabaqcadan daha yaxşı xəbər verən yanaşma tətbiq edilməlidir. Bu şərh 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir, lakin müəyyən keçid azadedilmələri mümkündür. AZƏRTAC bu şərhi qüvvəyə mindiyi tarixdən tətbiq edəcək. AZƏRTAC mürəkkəb transmilli vergi mühütində fəaliyyət göstərdiyi üçün Şərhin tətbiqi onun maliyyə hesabatlarına və tələb olunan açıqlamalarına təsir göstərə bilər. Bundan əlavə, şərhi vaxtında tətbiq etmək zəruri olan məlumatları əldə etmək məqsədi ilə AZƏRTAC proses və prosedurları müəyyən etmək zərurəti qarşısında qala bilər.

*9 saylı MHBS-na düzəlişlər (Mənfi konsepsiyasını nəzərdə tutan əvvəlcədən ödəmə növü)*

9 saylı MHBS-a əsasən borc aləti amortizasiya hesablanmış dəyərlə və ya sair məcmu gəlir vasitəsi ilə ədalətli dəyərlə o şərtlə qiymətləndirilə bilər ki, müqavilə ilə nəzərdə tutulan pul vəsaitlərinin hərəkəti "yalnız əsas məbləğ və faizin ödənilməsi" (YƏMFÖ) meyarına uyğun olsun və alət bu təsnifləşdirməyə müvafiq olan biznes model çərşivəsində saxlanılsın. 9 saylı MHBS-na düzəlişlər izah edir ki, müqavilənin erkən xitamı ilə nəticələnən hadisə və ya haldan və müqavilənin xitamına görə müvafiq kompensasiyanı hansı tərəfin ödəməsindən asılı olmayaraq maliyyə aktivləri üzrə YƏMFÖ meyarı tətbiq olunur.

Düzəlişlərə dair nətincələrin əsasında izah edilir ki, erkən xitam müqavilənin müddəti və ya müqavilə tərəflərinin nəzarəti xaricində olan hadisə, məsələn müqavilənin erkən xitamına gətirib çıxaran qanun və ya qanunvericilikdə dəyişiklik nəticəsində baş verə bilər. Düzəlişlər 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik dövlr üçün qüvvəyə minir.

## 7. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR

Torpaq, tikili və avadanlıqlar aşağıdakılardan ibarətdir:

| | | Binalar, qurğular | Maşın avadanlıq | Nəqliyyat vasitələri | Mebel və təsərrüfat | Anbarda olan əsas | Cəmi Əsas vəsaitlər |
|---|---|---|---|---|---|---|---|

| | | | | | inventarları | vəsaitlər | |
|---|---|---|---|---|---|---|---|
| **2017 il** | 1 yanvar tarixinə ilkin dəyər | | 2 404 194,00 | 384 384,00 | 48 839,00 | 54 421,00 | 2 891 838,00 |
| | Yığılmış amortizasiya | | (1 544 030,00) | (294 295,00) | (25 781,00) | - | (1 864 106,00) |
| | **1 yanvar tarixinə balans dəyəri** | - | **860 164,00** | **90 089,00** | **23 058,00** | **54 421,00** | **1 027 732,00** |
| | Daxilolmalar | | | | | 232 811,00 | 232 811,00 |
| | Xaricolmalar | | | | | | |
| | Amortizasiya ayırmaları | | (218 379,00) | (22 522,00) | (6 629,00) | | (247 530,00) |
| | Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | | | - |
| | Yenidənqiymətləndirmə | | | | | | - |
| | Yerdəişmələr | | | | | | |
| | **31 dekabr tarixinə balans dəyəri** | - | **641 785,00** | **67 567,00** | **16 429,00** | **287 232,00** | **1 013 013,00** |
| | 31 dekabr tarixinə ilkin dəyər | - | 2 404 194,00 | 384 384,00 | 48 839,00 | 287 232,00 | 3 124 649,00 |
| | Yığılmış amortizasiya | - | (1 762 409,00) | (316 817,00) | (32 410,00) | - | (2 111 636,00) |
| | **31 dekabr tarixinə balans dəyəri** | - | **641 785,00** | **67 567,00** | **16 429,00** | **287 232,00** | **1 013 013,00** |
| **2018 il** | Daxilolmalar | 6 500 000,00 | | | | 230 353,00 | 6 730 353,00 |
| | Xaricolmalar | | | | | | |
| | Amortizasiya ayırmaları | | (211 159,00) | (16 892,00) | (6 430,00) | | (234 481,00) |
| | Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | | | |
| | Yenidənqiymətləndirmə | | | | | | |
| | Yerdəişmələr | | | | | | |
| | **31 dekabr tarixinə balans dəyəri** | **6 500 000,00** | **430 626,00** | **50 675,00** | **9 999,00** | **517 585,00** | **7 508 885,00** |
| | 31 dekabr tarixinə ilkin dəyər | 6 500 000,00 | 2 404 194,00 | 384 384,00 | 48 839,00 | 517 585,00 | 9 855 002,00 |
| | Yığılmış amortizasiya | | (1 973 568,00) | (333 709,00) | (38 840,00) | - | (2 346 117,00) |
| | **31 dekabr tarixinə** | | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | balans dəyəri | 6 500 000,00 | 430 626,00 | 50 675,00 | 9 999,00 | 517 585,00 | 7 508 885,00 |

## 8. QEYRİ-MADDİ AKTİVLƏR

| | | Proqram məhsulu | Lisenziya | | | | Cəmi QMA |
|---|---|---|---|---|---|---|---|
| | 1 yanvar 2017-cı il tarixinə ilkin dəyər | 961 420,00 | | | | | 961 420,00 |
| | Yığılmış amortizasiya | (37 142,00) | | | | | (37 142,00) |
| | 1 yanvar 2017-cı il tarixinə balans dəyəri | 924 278,00 | | | | | 924 278,00 |
| | Daxilolmalar | 571 100,00 | | | | | 571 100,00 |
| | Xaricolmalar | | | | | | |
| | Amortizasiya ayırmaları | (96 142,00) | | | | | (96 142,00) |
| | Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | | | |
| | Yenidənqiymətləndirmə | | | | | | |
| | Yerdəişmələr | | | | | | |
| | 31 dekabr 2017-cı il tarixinə balans dəyəri | 1 399 236,00 | | | | | 1 399 236,00 |
| | 1 yanvar 2018-cı il tarixinə ilkin dəyər | 1 532 520,00 | | | | | 1 532 520,00 |
| | Yığılmış amortizasiya | (133 284,00) | | | | | (133 284,00) |
| | 1 yanvar 2018-cı il tarixinə balans dəyəri | 1 399 236,00 | | | | | 1 399 236,00 |
| | Daxilolmalar | 590 726,00 | | | | | 590 726,00 |
| | Xaricolmalar | | | | | | |
| | Amortizasiya ayırmaları | (212 325,00) | | | | | (212 325,00) |
| | Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | | | |
| | Yenidənqiymətləndirmə | | | | | | |
| | Yerdəişmələr | | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **31 dekabr 2018-cı il tarixinə balans dəyəri** | **1 777 637,00** | | | | | **1 777 637,00** |
| | **31 dekabr 2018-cı il tarixinə ilkin dəyər** | **2 123 246,00** | | | | | **2 123 246,00** |
| | **Yığılmış amortizasiya** | **(345 609,00)** | | | | | **(345 609,00)** |
| | **31 dekabr 2018-cı il tarixinə balans dəyəri** | **1 777 637,00** | | | | | **1 777 637,00** |

## 9. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | **2018** | **2017** |
|---|---|---|
| Bank hesabları – milli valyuta ilə | 31 485,00 | - |
| Bank hesabları – xarici valyuta ilə | - | - |
| Xəzinədarlıq | - | 4 970,00 |
| **31 dekabr tarixlərinə qalıq** | **31 485,00** | **4 970,00** |

## 10. EHTİYATLAR

| | **2018** | **2017** |
|---|---|---|
| Material ehtiyatları (Yanacaq) | 7 344,00 | - |
| AQTKƏ | 259 587,00 | 78 944.00 |
| Ehtiyatlar üzrə dəyərin azalması | (233 522,00) | (59 261,00) |
| **31 dekabr tarixlərinə qalıq** | **33 409,00** | **19 683,00** |

## 11. DEBİTOR BORCU VƏ DİGƏR BORCLAR

| | **2018** | **2017** |
|---|---|---|
| Vergilər və məcburi ödənişlər üzrə artıq ödəniş | 4 431,00 | - |
| Malsatanlara avans ödənişi | 5 955,00 | - |
| **31 dekabr tarixlərinə qalıq** | **10 386,00** | **0,00** |

## 12. KREDİTOR BORCLARI VƏ DİGƏR BORCLAR

| **Kreditor borcları və digər borclar** | **2018** | **2017** |
|---|---|---|
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəlik | 808,00 | - |
| **Cəmi borclar** | **808,00** | **0,00** |

## 13. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

| | **2018** | **2017** |
|---|---|---|
| **Öhdəliklər** | | |

| | | |
|---|---|---|
| Digər öhdəliklər | 10 386,00 | 0,00 |
| **Cəmi borclar** | ***10 386,00*** | **0,00** |

## 14. GƏLİRLƏR

| | 2018 | 2017 |
|---|---|---|
| Reklam gəlirləri (birja) | 63 587,000 | 493 892,00 |
| Büdcədən maliyələşmə | 10 947 426,00 | 7 668 590,00 |
| **Cəmi gəlirlər** | ***11 011 013,00*** | **8 162 482,00** |

## 15. İNZİBATİ XƏRCLƏR

| | 2018 | 2017 |
|---|---|---|
| Əmək haqqı | 4 580 593,00 | 2 707 826,00 |
| Sosial sığorta | 1 277 062,00 | 590 557,00 |
| Material xərcləri | | 178 139,00 |
| ƏV amortizasiyası | 234 481,00 | 247 530,00 |
| QMA amortizasiyası | 212 325,00 | 96 142,00 |
| Enerji xərcləri | 23 446,00 | 222 713,00 |
| Yanacaq | 85 964,00 | |
| Kommersiya xərcləri | 15 564,00 | 493 892,00 |
| İstifadə olunmuş materiallar | 173 801,00 | |
| Ezamiyyə | 332 432,00 | |
| Xidmət | 453 787,00 | |
| Rabitə-İnternet | 156 629,00 | |
| Təmir xərcləri | 44 988,00 | |
| Sair xərclər | 4 172,00 | 3 184 879,00 |
| **Cəmi xərclər** | ***7 597 244,00*** | ***7 721 678,00*** |

## 16. KAPİTAL EHTİYATLARI

| | 2018 | 2017 |
|---|---|---|
| Əsas vəsaitlər üzrə ehtiyatlar | 6 495 872,00 | **-14 719,00** |
| Qeyri-maddi aktivlər üzrə ehtiyatlar | 378 401,00 | 474 958,00 |
| Ehtiyatlar üzrə yığım | 13 726,00 | -19 436,00 |
| Pul vəsaitinin artımı | 26 578,00 | |
| Kreditor borcları | -808,00 | |
| ***CƏMİ Kapital Ehtiyatları*** | ***6 913 769,00*** | ***440 803,00*** |

## 17. ƏLAQƏLİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR

Tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla ümumi nəzarət altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona əhəmiyyətli

təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi forması deyil, mahiyyəti nəzərə alınır.

## 18. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

*Faiz dərəcəsi riski.* Agentlik, faiz hesablanan uzunmüddətli kreditlərdəki bazar dəyərinin dəyişməsi nəticəsində faiz dərəcəsi riskinə məruz qalır. Agentliyin faizli aktiv və passivləri yoxdur.

**Likvidlik riski**. Düzgün likvidlik risk idarəsi kifayət qədər pul vəsaiti və qiymətli kağızların təmin edilməsi, gözlənilən kredit imkanları vasitəsilə fondun mövcudluğu və bazar mövqeyinin dayandırıla bilinməsi deməkdir. Agentliyin likvidlik idarəsi ilə əlaqədar hər hansı bir siyasəti və ya qaydaları mövcud deyil.

**Maliyyə alətlərinin ədalətli dəyəri.** Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Agentlik tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Maliyyə aktivləri amortizasiya olunmuş maya dəyərində əks olunurlar. Normal halda maliyyə aktivlərinin ədalətli dəyəri elə onların qalıq dəyərlərinə bərabər olur. Sabit faiz dərəcəsi ilə təqdim edilən maliyyə alətlərinin təxmini ədalətli dəyəri həmin alətlər ilə bağlı gələcəkdə nəzərdə tutulan pul vəsaitləri axınlarının cari faiz dərəcəsi ilə diskontlaşdırılmasına əsasən hesablanılır. İstifadə olunan diskont dərəcəsi qarşı tərəfin kredit riskinin dərəcəsindən asılıdır. Debitor borclarının və digər borcların ədalətli dəyəri onların qalıq dəyərinə yaxın rəqəmdir.

Öhdəliklər də amortizasiya olunmuş maya dətərində əks olunurlar. Sabit faizli və müəyyən olunmuş ödəmə tarixinə malik və hərrac bazarında qiyməti müəyyənləşməyən alətin ədalətli dəyəri həmin alət ilə bağlı gələcəkdə nəzərdə tutulan pul vəsaitləri axınlarının cari faiz dərəcəsi ilə diskontlaşdırılmasına əsasən hesablanılır. Tələbolunanadək ödənilən depozitlərin ədalətli dəyəri tələb olunan məbləğin ödənilməsi planlaşdırılan ilk gündən etibarən diskonlaşdırılması nəticəsində alınan dəyərə yaxın məbləğdə təxmin edilir.

## 19. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat dövründən sonra açıqlanma üçün heç bir vacib əməliyyat qeydə alınmamışdır.